AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# KORRUPSİYAYA YOX DEYƏK!

BAKI - 2022



*“Korrupsiya Azərbaycanda olmamalıdır. Bu sosial bəlanı biz aradan götürməliyik. Korrupsiya sosial ədalət prinsiplərini pozur, cəmiyyətin uğurlu inkişafını əngəlləyir. Cəmiyyətin səyləri, dövlət siyasəti sayəsində biz korrupsiyaya qarşı daha da ciddi mübarizə aparırıq və aparacağıq”.*

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bu kitabçanın hazırlanmasında məqsəd korrupsiyaya qarşı mübarizə sahəsində əhalini maarifləndirmək, vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə elektron formada, poçt vasitəsilə, şəxsən və ya telefon vasitəsilə necə müraciət edilməsi barədə müvafiq məlumatlar verməkdən ibarətdir.

# KORRUPSİYANIN ANLAYIŞI



Korrupsiya - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.

# HƏDİYYƏ ALMA İLƏ ƏLAQƏDAR MƏHDUDİYYƏTLƏR



Vəzifəli şəxs xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Fiziki və hüquqi şəxslərlə mülki-hüquqi əqdlərin bağlanması və ya onların icrası zamanı vəzifəli şəxslər tərəfindən xidməti fəaliyyəti ilə əlaqədar olaraq hər hansı güzəştlərin və ya imtiyazların əldə edilməsi qadağan olunur.

Vəzifəli şəxsə qanunsuz maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, vəzifəli şəxs onlardan imtina etməlidir.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MƏLUMATVERMƏ



Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat hər bir şəxs tərəfindən yazılı (o cümlədən elektron) və ya şifahi formada verilə bilər.

Barəsində məlumat verilən şəxsə, həmçinin araşdırmanın nəticəsində birbaşa və ya dolayısı ilə maraqlı olan şəxslərə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatın araşdırılması həvalə edilə bilməz.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat səlahiyyətli struktur bölmə ilə əlaqədar olduqda, məlumatı verən şəxs həmin məlumatı müvafiq idarə, müəssisə və ya təşkilatın rəhbərinə təqdim etmək hüququna malikdir. İdarə, müəssisə və ya təşkilatın rəhbəri belə məlumatların qəbul edilməsini, qeydə alınmasını və qanunla nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməlidir.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat idarə, müəssisə və ya təşkilatın rəhbəri ilə bağlı olduqda, məlumat verən şəxs həmin məlumatı idarə, müəssisə və ya təşkilatın rəhbərindən yuxarı vəzifəli şəxsə və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlara təqdim etmək hüququna malikdir. Həmin orqanlar bu məlumatın qəbul edilməsini, qeydə alınmasını və qanunla nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MƏLUMAT VERƏN ŞƏXSİN DÖVLƏT MÜDAFİƏSİ



Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs özü barədə məlumatın açıqlanmasını istəmədiyi halda, səlahiyyətli struktur bölmə, idarə, müəssisə və ya təşkilatın rəhbəri və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar onun konfidensiallığını təmin etməlidirlər. Bu məlumat korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin yazılı razılığı olduqda açıqlanır. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin konfidensiallığının pozulmasında təqsiri olan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumuna hədə-qorxu gəlmək, onları təzyiqlərə məruz qoymaq, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və təhdid etmək, şərəf və ya ləyaqətini alçaltmaq qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MƏLUMAT VERƏN ŞƏXSİN DÖVLƏT MÜDAFİƏSİ



Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs və ya onun yaxın qohumu barəsində öldürməklə hədənin icra ediləcəyi, zor tətbiq ediləcəyi, əmlakının məhv ediləcəyi və ya ona ziyan vurulacağı qorxusunun mövcudluğu barədə real əsaslar olduğu təqdirdə, korrupsiya ilə əlaqədar hüquqpozma-larla bağlı məlumat verən şəxsin prokurorluğa müraciəti əsasında "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təhlükəsizlik tədbirləri tətbiq edilir.

İdarə, müəssisə və ya təşkilatlar, səlahiyyətli struktur bölmə və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar tərəfindən yuxarıda göstərilən tələblər pozulduqda, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs inzibati qaydada müraciət edə və (və ya) məhkəməyə şikayət verə bilər.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MƏLUMAT VERƏN ŞƏXSİN DÖVLƏT MÜDAFİƏSİ

**Qeyd edilən müdafiə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı bilə-bilə yalan məlumatvermə, həmçinin özü və ya digər şəxslər üçün qanunsuz olaraq maddi və digər nemətlər, imtiyazlar və güzəştlər əldə etmək məqsədi ilə məlumatvermə hallarında tətbiq olunmur.**

İQTİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİNDƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏNİ HƏYATA KEÇİRƏN STRUKTUR

**Dövlət Vergi Xidmətində vəzifəli şəxslər (əməkdaşlar) tərəfindən yol verilmiş korrupsiya və digər hüquqpozma halları barədə daxil olan məlumatlar, müraciətlər, təqdimatlar, vətəndaşların ərizə və şikayətləri üzrə xidməti araşdırma və təhqiqat aparmaq Dövlət Vergi Xidmətinin Daxili təhlükəsizlik baş idarəsinin (DTBİ) səlahiyyətlərinə aid edilmişdir.**

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MÜRACİƏTLƏRƏ BAXILMASININ XÜSUSİYYƏTLƏRİ



Dövlət orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının 30.09.2015-ci il tarixli 1308-IVQ nömrəli Qanununa müvafiq olaraq baxılır.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir. Xidməti araşdırmanı müvafiq dövlət orqanında daxili nəzarət xidməti aparır. Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır. Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda dövlət orqanı rəhbərinin bu müddəti 10 iş günü uzatmaq hüququ vardır.

**Dövlət orqanının rəhbəri xidməti araşdırmanın nəticəsi barədə məlumatı aldıqdan sonra müraciət üzrə aşağıdakı qərarlardan birini qəbul edir:**

- Müraciətin əsaslı olduğu təsdiq edildikdə, eyni zamanda əməldə mülki-hüquqi və ya inzibati məsuliyyəti yaradacaq əlamətlər olduqda Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülməsi, cinayət əlamətləri olan hüquqpozmalar aşkar edildikdə, müvafiq sənədlərin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi barədə;

- Müraciətin əsaslı olması təsdiq edildikdə, lakin əməldə mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaradacaq əlamətlər olmadıqda aidiyyəti şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə;

- Müraciətin əsaslı olduğu təsdiq edilmədikdə şikayət üzrə icraata xitam verilməsi barədə.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MÜRACİƏTLƏRƏ BAXILMASININ XÜSUSİYYƏTLƏRİ



- Müraciət etmiş şəxsə qəbul olunmuş qərar haqqında əsaslandırılmış cavab verilməklə həmin qərardan şikayət etmək hüququ izah olunur.

- Vətəndaşın dövlət orqanı rəhbərinin qərarından yuxarı dövlət orqanına şikayət vermək hüququ vardır. Bu müddəa vətəndaşın dövlət orqanı rəhbərinin qərarından məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.

- Dövlət orqanları istisna olmaqla, digər müraciətə baxan subyektlərdə korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Qanunun 7-ci maddəsində müəyyən edilmiş qaydada 20 iş günü müddətində baxılır.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MÜRACİƏTLƏRƏ BAXILMASININ XÜSUSİYYƏTLƏRİ



**Vergi orqanları əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları ilə bağlı müraciət etdiyiniz zaman aşağıdakılara xüsusi diqqət yetirməyiniz və onları nəzərə almağınız xahiş olunur:**

- Dövlət Vergi Xidmətinə rəsmi daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq baxılır.

- Müraciət etmə üsullarının yaradılmasında əsas məqsəd vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi üçün şəxslərin birbaşa daxili nəzarət strukturlarına operativ məlumat vermə imkanlarının genişləndirilməsindən ibarətdir.

# KORRUPSİYA İLƏ ƏLAQƏDAR HÜQUQPOZMALARLA BAĞLI MÜRACİƏTLƏRƏ BAXILMASININ XÜSUSİYYƏTLƏRİ

- Sizin şəxsiyyətiniz haqqında məlumatlar üzrə məxfiliyə ciddi əməl olunur və hər hansı bir səbəb olmadan verilmiş məlumatın mənbəyinə dair heç bir açıqlama verilmir, Dövlət Vergi Xidmətinin əməkdaşlarına və ya Sizin razılığınız olmadan Dövlət Vergi Xidmətinin DTBİ-dən kənarda hər hansı bir şəxsə ötürülmür.

- Sizin verdiyiniz məlumatlar Dövlət Vergi Xidməti tərəfindən vergi orqanlarında həyata keçirilən daxili nəzarət tədbirləri zamanı nəzərə alınacaqdır.

- Siz mənbəyi bəlli olmayan, heç bir sənəd və ya sübuta əsaslanmayan, yaxud öz şəxsi marağınız baxımından vergi işçinin xidməti vəziyyətini pisləşdirən məlumatların verilməsinə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırsınız.

- Dövlət Vergi Xidmətinin əməkdaşlarının hər hansı fəaliyyəti ilə əlaqədar olaraq korrupsiya və digər hüquqpozma hallarının mövcud olması barədə məlumat vermək üçün bu bukletdə qeyd olunan imkanlardan istifadə etməklə əlaqə saxlaya bilərsiniz.

MƏLUMAT VERMƏ İMKANLARI:

• **elektron formada**



Siz İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsindəki (www.taxes.gov.az) "Müraciət" bölməsinin "Onlayn müraciət" alt bölməsindən "Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi", habelə "Xidmətlər" bölməsinin "Elektron xidmətlər" alt bölməsindəki "Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi" elektron xidmətinə daxil olub onlayn rejimdəki elektron formadan istifadə etməklə öz məlumatınızı göndərə bilərsiniz.

Vergi ödəyiciləri əlavə olaraq, Dövlət Vergi Xidmətinin internet səhifəsindəki "İnternet Vergi İdarəsi"ndə hər bir istifadəçi üçün ayrılmış elektron kabinet vasitəsi ilə öz məlumatlarını göndərə bilərlər.

MƏLUMAT VERMƏ İMKANLARI:

• **poçt vasitəsilə**



Siz Dövlət Vergi Xidmətinin poçt ünvanına məktublarınızı və ya Dövlət Vergi Xidmətinin DTBİ-nə üzərində “MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə” qeydi olan məktublarınızı göndərə bilərsiniz.



**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu,**
**Keşlə qəsəbəsi, Heydər Əliyev prospekti 155,**
**AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti**

## MƏLUMAT VERMƏ İMKANLARI:

- **şəxsən**



Məlumatınızı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) Dövlət Vergi Xidmətinin DTBİ-nə gəlməklə də çatdıra bilərsiniz.



**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu,
Keşlə qəsəbəsi, Heydər Əliyev prospekti 155,
AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti,
Daxili təhlükəsizlik baş idarəsi**

MƏLUMAT VERMƏ İMKANLARI:

- **telefon vasitəsilə**

**Siz məlumatınızı İqtisadiyyat Nazirliyinin 195-1 Çağrı Mərkəzi ilə əlaqə saxlayaraq verə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

Ünvan: Azərbaycan Respublikası, AZ1029,
Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi,
Heydər Əliyev prospekti 155,
Telefon: (99412) 403 89 70
Elektron ünvan: office@taxes.gov.az
**www.taxes.gov.az**